**“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar onun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:*[1]

*2.1. “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun 2.1.5-1-ci, 8.1.1 – 8.1.5-ci, 8.1.8 – 8.1.10-cu, 8.1.13-cü, 8.1.16-cı, 8.1.18-ci və 9.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*[2]

*2.2. həmin Qanunun 2.1.5-1-ci maddəsində “qurum” dedikdə, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası nəzərdə tutulur;*

*2.3. həmin Qanunun 6.2-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanları” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (1 nəfər), Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (1 nəfər) və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (1 nəfər) nəzərdə tutulur.*[3]

*2.4. həmin Qanunun 17.2-ci maddəsinin ikinci, üçüncü və dördüncü cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.*

3. Azərbaycan Respublikası Mərkəzi Bankına tapşırılsın ki:

~~3.1. “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununda müəyyən edilmiş meyarlar əsasında bankların qiymətləndirilməsi və restrukturizasiyası proseslərinin dərinləşdirilməsi üzrə məqsədyönlü tədbirlər həyata keçirsin;~~[4]

3.2. Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurasında Azərbaycan Respublikasının Mərkəzi Bankını və iştirakçı bankları təmsil edəcək nümayəndələrin təyin olunması üçün müvafiq tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Mərkəzi Bank ilə birlikdə bank sistemində maliyyə intizamının

gücləndirilməsi və bank inzibatçılarının məsuliyyətinin artırılması məqsədilə maliyyə sanksiyalarının tətbiqi üçün qanunvericilik təkliflərini hazırlayıb 2 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.[5]

5. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 fevral 2007-ci il
№ 530

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 11 fevral 2010-cu il, № 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 80)**
2. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 16 may 2014-cü il, № 101)**
3. 1 mart 2016-cı il tarixli **812** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 mart 2016-cı il, № 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 433)**
4. 3 oktyabr 2016-cı il tarixli **1051** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 oktyabr 2016-cı il, № 217, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1610)**
5. 13 iyul 2017-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 23 iyul 2017-ci il, № 157)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 16 may 2014-cü il, № 101)** ilə 2-ci hissəsində "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

1 mart 2016-cı il tarixli **812** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 mart 2016-cı il, № 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 433)** ilə Fərmanın 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi həyata keçirirlər.~~

3 oktyabr 2016-cı il tarixli **1051** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 oktyabr 2016-cı il, № 217, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1610)** ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*2. Müəyyən edilsin ki:*~~

~~*2.1. "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirirlər;*~~

~~*2.2. həmin Qanunun 17.2-ci maddəsinin ikinci, üçüncü və dördüncü cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.*~~

[2] 13 iyul 2017-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 23 iyul 2017-ci il, № 157)** ilə 2.1-ci bənddə "**maddəsində**" sözü "**, 8.1.1 – 8.1.5-ci, 8.1.8 – 8.1.10-cu, 8.1.13-cü, 8.1.16-cı, 8.1.18-ci və 9.1-ci maddələrində**" sözləri ilə əvəz edilmişdir.

[3] 13 iyul 2017-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 23 iyul 2017-ci il, № 157)** ilə 2.3-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~*2.3. həmin Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirirlər;*~~

[4] 3 oktyabr 2016-cı il tarixli **1051** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 4 oktyabr 2016-cı il, № 217, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 10, maddə 1610)** ilə 3.1-ci bənd ləğv edilmişdir.

[5] 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 11 fevral 2010-cu il, № 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 80**) ilə 3-cü və 4-cü bəndlərində ismin müvafiq hallarında "**Milli Bank**" sözləri ismin müvafiq hallarında "**Mərkəzi Bank**" sözləri ilə əvəz edilmişdir.